FƏLSƏFƏ və SOSİOLOGİYA

UOT 101.1
DOI: https://doi.org/10.30546/19063.2025.01.10023

# FƏLSƏFƏNİN MİLLİ-MƏNƏVİ İRSƏ SÖYKƏNMƏKLƏ İNKİŞAFI

**ZEYNƏDDİN MÜSƏNNİF OĞLU ŞABANOV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

*Azərbaycan Respublikası, Bakı ş.,*
*İstiqlaliyyət küç., 30. AZ1001*
*orcid.org 0000-0003-4102-6250*
*E-mail: zeynaddin.shabanov@gmail.com*

**XÜLASƏ**

Məqalədə fəlsəfənin müasir dövrdə qarşılaşdığı problemlər, cəmiyyətin inkişafında fəlsəfənin üzərinə düşən vəzifələr barədə təhlil işi aparılır. Beynəlxalq aləmdə fəlsəfənin tədrisinin mənzərəsinə düqqət yönəldilir. Azərbaycanda fəlsəfənin tədrisi ilə bağlı problemlərə nəzər salınır, bu sahədə mövcud olan çətinliklərin aradan qaldırılmasının zəruriliyi vurğulanır. Cəmiyyətin inkişafının fəlsəfi təfəkkürün inkişafı, dərinliyi ilə bağlı olması bildirilir. Qeyd olunur ki, fəlsəfə milli-mənəvi irsə söykənməklə inkişaf etməlidir.

**Açar sözlər:** *fəlsəfə, cəmiyyət, tədris, məktəb, tələbə, inkişaf, milli-mənəvi irs.*

## Giriş

Müxtəlif hadisə və proseslərin baş verdiyi müasir qloballaşan və dinamik inkişaf edən cəmiyyətdə problemlərin mənasını dərk etmək, düzgün qərar vermək, ilk səbəbi öyrənmək üçün dərin fəlsəfi biliklərin olması zərurətini əksəriyyət dərk edir. Məhz buna görə də müxtəlif elm sahələrində problemlərin fəlsəfi izahına cəhd edirlər. Fəlsəfi biliklərin köməyi ilə bütün sahələrdə uğurlar əldə etmək, həqiqəti üzə çıxarmaq mümkündür. Fəlsəfənin belə rolu haqqında qədim dövrdən bu günə kimi mütəfəkkirlər maraqlı fikirlər irəli sürüblər.

Dünyanın bir sıra ölkələrində aşağı siniflərdən fəlsəfə dərsi keçilir. Avropa ölkələri artıq Boloniya prinsiplərindən uzaqlaşırlar. İndi ABŞ təhsil sisteminə meyillilik artıb, İngiltərə isə Sovet təhsil sisteminə keçməyi hədəfləyib. Avropa ölkələrində həm də orta məktəbin yuxarı siniflərində fəlsəfə əsaslı şəkildə (əsasən də milli fəlsəfə) öyrədilir. İnkişafına görə dünyanın bütün ölkələrini üstələyən Çində isə fəlsəfə bütün ali məktəblərdə nüfuz sahibidir. Dünyanın güclü dövlətləri, onların birlikləri inkişaf etməkdə olan ölkələrdə vətənpərvərliyin, milli-mənəvi dəyərlərin, milli özünüdərkin, milli mentalitetin qorunub saxlanılması və inkişaf etdirilməsini qloballaşma üçün, özlərinin həmin ölkələrdə maddi və digər maraqları üçün təhlükə görürlər.

## Əsas hissə

Hazırda fəlsəfənin tədrisi yeni məlumat texnologiyalarının tədris prosesinə aktiv daxil olması sayəsində xeyli genişlənmişdir. Bu da tələbələrin ənənəvi metod və formalarla (mühazirələr və məşğələlər) bilik əldə etməklə bərabər, yenilərin fəal şəkildə tətbiq olunmasına imkan verir: müxtəlif növ işgüzar oyunlar, slaydlarla izah, təqdimatlar, beyin həmləsi, təlimlər, problemli müzakirələr, yazılı və elektron oçerklər, esselər, referatlar, kuizlər və s.

Son illərdə Azərbaycan ali məktəblərinin tədris planlarında fəlsəfəyə və ictimai-siyasi fənlərə ayrılan saatların azaldılması, bu fənlərin bir çoxunun ixtisar edilməsi, orta məktəblərdə müvafiq fənnin tədrisi üçün hələ də müəllim kadrlarının hazırlanmaması, kütləvi informasiya vasitələrində fəlsəfi fikir tariximizə və ümumiyyətlə, mənəvi təkamülə, dünyagörüşünün genişlənməsinə xidmət edən verilişlərə çox az yer ayrılması, habelə, mədəniyyətşünaslıq və maarifçilik yönlü verilişlərin azlığı, mədəni-mənəvi dəyərlərin yetərincə təbliğ olunmaması böyük narahatlıq doğurur. Fəlsəfənin saatlarını azaldıb, seçmə fənn qrupuna daxil edilməsi fəlsəfə ictimaiyyətinin gözü qarşısında baş verir. Ayrı-ayrı istisnaları çıxmaq şərtilə elə bir ciddi reaksiya da yoxdur. Praqmatizmə meyilli olan indiki gənclər bu vəziyyəti (hamının gözü qarşısında fəlsəfənin qürub etməsini) görür və istedadlarını başqa sahəyə yönəldirlər.

Tanınmış italyan filosofu Umberto Eko cəmiyyətdə fəlsəfəyə etinasız münasibətin mütəmadi artdığını müşahidə edərək yazırdı: "Hər gün qəzetlərin ilk səhifələrində yer almasa da, lisey islahatı ilə bağlı müzakirələr aktuallığını hələ də qoruyur və bu müzakirələrin əsas mövzusu fəlsəfənin tədrisi ilə bağlı islahatdır. Söhbət fəlsəfə dərsinin reform olunmasından, ya da tamamilə ortadan qaldırılmasından gedir. Deyirlər ki, onsuz da digər sosial elmlər barə-

də dərslər tədris olunur. Bir neçə həftə əvvəl Bolonyada Fəlsəfə Dərnəyinin bir iclasına qatıldım və Gentile islahatını, təkcə Gentile (Giovanni Gentile: İtalyan filosof və siyasətçi. Mussolini hakimiyyəti dövründə iki il ərzində milli təhsil naziri olmuşdur) həyata keçirib deyə, ortadan qaldırmağımıza gərək olmadığını ifadə etməyə məcbur qaldım. Ən azından bu məsələ ilə bağlı irəli sürülən tənqidlər, fəlsəfənin bizim ölkəmizdə bu günədək davam edən tədris forması üzərinə fokuslanmamalıdır. Qənaətimə görə, İtaliya liseylərindəki fəlsəfə dərsləri, fəlsəfənin tədrisinə yer verən digər ölkələrdəki vəziyyətlə müqayisədə xeyli yüksək səviyyədədir. Əgər İtaliyadakı hadisələr fərqli formada inkişaf etsəydi və tutalım, Qremşinin islahatları cəmiyyətə tətbiq olunsaydı, elə sanıram ki, məktəblərimizdə yenə də fəlsəfə tarixi oxudulacaqdı. Nəyə görə gələcəyin tələbələrini aktual mövzulardan, mədəniyyət tarixi içində həyat qazandırıb yaşadacağımız fəlsəfə tarixindən məhrum etmək istəyirik ki?" [6]

Fəlsəfə doktoru, dosent Q. Mürşüdlü öz saytında yazır ki, fəlsəfə fənninin cəmiyyətimizdə, təhsil sistemində layiqli nüfuza malik olmaması həm də onun arzuolunan səviyyədə tədris edilməməsi ilə bağlıdır. Doğrudur, postsovet dövründə istər tədris, istərsə də fəlsəfi problemlərin tədqiqi sahəsində dünya ilə və zamanla ayaqlaşmaq səyləri və buna bağlı uğurlar var, amma bu daha çox fərdi təşəbbüs və fəaliyyətin nəticəsidir. Halbuki tədrisin bütün pillələrində (bakalavr, magistratura, doktorantura) fəlsəfə üzrə proqramların sözün həqiqi mənasında yenilənməsinə, fəlsəfənin "sovet mundirindən" azad olunmasına böyük ehtiyac var və nə yazıq ki, bu sahədə çox gecikmişik. Fəlsəfə doktoru Elmar Hüseynovun paylaşımından bir şərhi diqqətinizə çatdırıram: "Ümumi fəlsəfə" anlayışının məzmunu qeyri-aydındır. Fəlsəfəyə giriş mövzuları vardır ki, burada fəlsəfənin əsas sahələri - metafizika, epistemologiya, məntiq, elm fəlsəfəsi və ya etika haqqında ümumi biliklər verilir. Amma, ümumiyyətlə, fəlsəfə dediyimiz zehni məşğuliyyət sahəsi müxtəlif fəlsəfi ənənələr və məktəblər kontekstində təzahür edir. Bu baxımdan fəlsəfəyə dair tədris proqramımız məqbul deyildir. Əksər fəlsəfə müəllimləri fəlsəfə adı altında özlərinin başa düşmüş və qavramış olduqlarını izah edirlər, amma bunun arxasında dayanmış olan fəlsəfi ənənə və ya məktəbdən bəhs etmirlər. Nəticə etibarilə tələbələrdə sanki yeganə mövcud olan fəlsəfə elə budur kimi yanlış təsəvvür formalaşır. Bu mənada ənənəvi tədris proqramında mövcud olan fəlsəfənin əsas məsələsi və ya fəlsəfənin ən ümumi inkişaf qanunauyğunluqları kimi əksər mövzular marksizm fəlsəfəsindən irəli gəlir, sadəcə olaraq "marksizm" anlayışından istifadə etmədən yanlış olaraq ümumi fəlsəfə adı altında təqdim edirlər. Eləcə də digərləri islam və ya digər fəlsəfə ənənələrindən götürülmüş olan fraqmentar bilikləri ümumi fəlsəfə adı altında müzakirə edirlər. Bu yanaşma yanlışdır və tələbədə yanlış təsəvvür formalaşdırmaqla yanaşı onları müxtəlif fəlsəfi istiqamətlər arasında müqayisə aparmaq imkanından məhrum edir" [5].

Hələ 1946-cı ildə BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə təşkilatının (YUNESKO) ilk konfransının yaratdığı komissiya tərəfindən hazırlanmış təkliflərdə göstərilirdi ki, insan şəxsiyyətinə hörmət, sülhə məhəbbət, dar, məhdud millətçiliyə və zorakılığa əsaslanan idarəetməyə nifrət, mədəniyyət ideallarına sədaqət və həmrəyliyin formalaşması üçün ictimai şüurda bir sıra fəlsəfi və etik kateqoriyaların qərarlaşması zəruridir. Bu kontekstdə fəlsəfəyə insanların birlik və həmrəylik məktəbi kimi baxmaq olar.

Tədris prosesində mövcud çatışmamazlıqlar imkan daxilində bu sahədə olan problemlərin araşdırılması və həllini tələb edir. Hazırda dünya və ilk növbədə postsovet mədəni bölgə ədəbiyyatında fəlsəfə və fəlsəfə tarixinin təqdimi və dəyərləndirilməsində fərqli və ziddiyyətli mövqelərin qanunauyğun surətdə Azərbaycanda da fəlsəfə və fəlsəfə tarixinin həm tədqiqat, həm tədris sahəsində təqdim və şərhində təzahürünü və fəlsəfi təhsilin xalqın, xüsusən gənc nəslin özünü şəxsiyyət və millət kimi dərk və təsdiq etməsi üçün böyük əhəmiyyət daşıyır.

Yaxın gələcəkdə siyasi cəhətdən zəif xalq və bölgə mədəniyyətlərinin assimilyasiya cəhdlərinə sinə gərməyi onların milli-mənəvi birliyindən asılı olacaq və hər bir xalq, o cümlədən, Azərbaycan xalqı da bunu nəzərə almalı, keçmiş və müasir mədəni dəyərlərin vəhdətləşməsi yolu ilə mədəni cəhətdən qloballaşmaya təmayüllü dünyaya öz mənəvi-mədəni orijinallığını qorumaqla daxil olmaq məqsədini qarşısına qoymalıdır. Dərk edilməlidir ki, tarixən milləti tarixdə yaşadan onun mədəniyyəti və bu mədəniyyətin məhvəri və əsas tərkib hissəsi, Azərbaycan xalqının ruhunu təmsil edən onun nümayəndələri tərəfindən yaradılmış fəlsəfi əsərlər, yəni Azərbaycan fəlsəfəsidir [2, s.20].

Məhz bu baxımdan Azərbaycan fəlsəfəsi tarixi-

nin müxtəlif dövrlərinin, onun inkişaf mərhələlərinin bir-biri ilə əlaqələrinin, tarixən və müasir orijinallığının tədqiqi və genişmiqyaslı təbliği bu fəlsəfənin ölkənin daxil olduğu müxtəlif ərazi dil, din və s. kontekstlərdə özünəməxsusluğunun tədqiq və şərhi müasir dövrdə millətimiz və milli mədəniyyətimizin özünəməxsusluq keyfiyyətini itirmədən mövcud olmasının tələblərindəndir. Azərbaycan fəlsəfə və fəlsəfə tarixi mütəxəssisləri bu tələbi nəzərə alaraq Azərbaycan fəlsəfəsinin öyrənilməsini diqqət mərkəzində saxlamalıdırlar. Məhz bu tələbə müvafiq hazırda çoxcildli Azərbaycan fəlsəfə tarixi üzərində iş davam etməkdədir.

Avropanın əksər ali məktəblərində ümumi fəlsəfə kursu ona görə keçilmir ki, həmin kurs liseylərdə artıq tədris olunmuşdur. Orta təhsil müddəti əsasən 12 il olan Avropa ölkələrində fəlsəfənin əsaslarının məhz liseylərdə tədris olunması onunla əlaqədardır ki, bu kurs ixtisas sahəsindən və ali təhsil alıb-almamasından asılı olmayaraq, bütün insanlara lazımdır. Həm də Avropada fəlsəfə sadələşdirilmiş şəkildə, mədəniyyətin tərkib hissəsi, dünyagörüşünün əsası kimi keçilir. Məqsəd məhz yeniyetməlik dövründə, xarakterin və dünyagörüşün ilkin formalaşma mərhələsində gəncləri həyatın mənası haqqında, fəzilət və ədalət haqqında düşünməyə sövq etmək, öz əməlləri üçün məsuliyyət hissi aşılamaqdan ibarətdir. Əsas məsələ budur ki, fəlsəfi dünyagörüşü və fəlsəfi düşüncə tərzi fəlsəfi cərəyanlarla, bu sahədəki tədqiqat işləri ilə qarışıq salınmasın. Sonuncular, əlbəttə, çox çətindir və nəinki məktəb, hətta ali təhsil səviyyəsi üçün də çox mürəkkəb və əlçatmazdır. Dərslik yazanlardan da elə bu tələb olunur ki, müxtəlif fəlsəfi sistemlərin təfərrüatları deyil, fəlsəfənin əqli tərbiyədə rolu, ümumən tərbiyəvi funksiyası ön plana çəkilsin [2, s.23].

ABŞ-da uşaqlar üçün Fəlsəfə İnstitutu fəaliyyət göstərir. Tanınmış rus fəlsəfə tədqiqatçısı N.Yulina 1993-cü ildə Harvard Universitetində bu məsələ ilə əlaqədar aparılan tədqiqatların nəticəsinə əsaslanaraq, bu praktikanın Rusiya üçün də əhəmiyyətli olduğunu qeyd edir. O, ABŞ alimi M.Lipmana istinadən bildirir ki, uşaqların insan və dünya haqqında, mənalı ömür haqqında düşünmələri, fəlsəfi fikir tərzinə çox erkən yiyələnmələri onların zərərli əməllərə qurşanmasının qarşısını ala biləcək ən gözəl vasitələrdən biridir. Fəlsəfi sistemlər haqqında mürəkkəb biliklər yox, fəlsəfi suallar qoymaq, “filosofluq” vərdişləri aşılamaq, daha doğrusu, uşaqlarda öz-özünə, təbii yolla yaranan bu düşüncə tərzinin qarşısını almamaq, məhdudlaşdırmamaq, əksinə, ona meydan açmaq tövsiyə olunur. Yeni təhsil paradiqmasına, “gələcəyin təhsilinə” keçid də bu problemlə əlaqələndirilir [7,c.38].

Üçüncü minilliyin sakit olmayan axarlarında bəşəriyyətin sülh, demokratiya və humanizm şəraitində yaşaması və inkişafı üçün fəlsəfənin rolunun dərki beynəlxalq qurum olan YUNESKO-nun 2004-cü ildə qəbul olunan fəlsəfə strategiyasını müəyyən etmiş layihəsində öz əksini tapmışdır. Fəlsəfənin tədrisi sahəsində qarşıda duran vəzifələrə strategiyada aşağıdakılar daxildir:

a) hökumətlərlə siyasi səviyyədə iş aparmaq lazımdır ki, onlar fəlsəfənin tədrisinə və fəlsəfi tədqiqatlara yardımçı olsunlar;

b) dünyada fəlsəfənin öyrənilməsi zərurəti müdafiə olunsun;

c) YUNESKO-nun üzvü olan ölkələrin fəlsəfənin öyrənilməsi üzrə proqramlarının həyata keçməsi üçün müvafiq sənədlər hazırlansın;

d) fəlsəfənin tədrisi və dünyada öyrənilməsinə dair tədqiqatlar dəstəklənsin.

Adıçəkilən istiqamətlər YUNESKO-nun strategiyasının əsas istiqamətləri adlandırılır və fəlsəfənin qarşısında duran qlobal məqsədlər sırasında fəlsəfənin öyrənilməsi, fəlsəfi tədqiqatların dəstəklənməsi, fərdlər arasında geniş yayılması, dövlətləri fəlsəfənin öyrənilməsinin maliyyələşdirməsinə istiqamətləndirilməsi, fəlsəfənin tədris edilməsi və fəlsəfi tədqiqatların dəstəklənməsi məqsədilə siyasi səviyyədə hökumətlərlə iş aparılması göstərilir. Bu gün YUNESKO xətti ilə “Fəlsəfə günü”nün qeyd edilməsi məqsədi fəlsəfi təfəkkür, fəlsəfi təhsil və fəlsəfi tədqiqatların dəstəklənməsi olduğunu nəzərə alaraq fikrimizi həmin məsələlərin təhlili üzərində quracağıq. Əvvəlcə onu qeyd etmək lazımdır ki, AMEA Fəlsəfə və Sosiologiya İnstitutunda hər il “Fəlsəfə günü” münasibətilə beynəlxalq tədbirlər, konfranslar, “dəyirmi masalar” keçirilir və burada əcnəbi alimlərin iştirakı ilə maraqlı məsələlər geniş müzakirə obyektinə çevrilir.

AMEA-nın müxbir üzvü, professor S.Xəlilov filosof və fəlsəfə anlayışlarına və bu anlayışlara münasibət haqqında fikirlərini irəli sürərərək yazır ki, biz hələ özümüz üçün həqiqi fəlsəfə ilə Azərbaycanda formalaşmış “fəlsəfə” anlayışı arasında fərqi aydınlaşdırmalıyıq. Çünki çağdaş ictimai şüurda və KİV-də fəlsəfə dünyada qəbul olunduğundan xey-

li fərqli mənada işlədilir. El dilində fəlsəfə az qala müdrikliyin, hazırcavablığın ekvivalenti kimi başa düşülür. Aşıq, dərviş, ağsaqqal müdrikliyi... "Fəlsəfə" - nədir; bunu bilmədikdə onun bir bəzək kimi, epitet kimi, tərifli söz kimi istifadə edilməsi təbii haldır. Azərbaycanda, "fəlsəfə" sözü uzun illərdən bəri məhz bu mənada işlədilir. Kimə filosof demək olar və nəyə fəlsəfə demək olar? Bu sualın birmənalı cavabını vermək çətindir. Amma bir şey hamıya aydındır. Fəlsəfə, görünür, düşüncə ilə bağlıdır və nə isə yaxşı bir şeydir. Həyat haqqında, ölüm haqqında, həyatın mənası və ya mənasızlığı haqqında hər hansı bir düşüncə doğrudan da fəlsəfədirsə, onda bəs filosofların baş sındırdığı məsələlər nədir? [4,s.4].

Fəlsəfənin cəmiyyətdəki missiyasına, zəmanənin mürəkkəbliyinə, qloballaşmanın çağırışlarına münasibət bildirərək professor Ə.Abbasov yazır: "Bu gün fəlsəfə ümumi fonda öz missiyasını daşımaq zərurətindədir. Onun universal, inteqrativ xarakterli elm olduğunu nəzərə alsaq, bu ümumi mənzərənin, yaşanan dövrün ziddiyyətlərinin, tələb və xüsusiyyətlərinin fəlsəfi tədqiqatlarda, tədqiqatçı və tədqiqatlar üçün mühüm rol oynadığı daha da aydın olar. Söhbət yalnız zəmanənin mürəkkəbliyinə, qloballaşmanın çağırışlarına həssaslıqdan getmir, bu, öz yerində, əsas məqsəd və başlıca vəzifələr ondan ibarətdir ki, nəzəri və praktiki həllini tələb edən ciddi problemlərin müqabilində adekvat kateqorial-instrumental aparat, paradiqmal baza, qnoseoloji-metodoloji zəminlər, hətta, zərurət olduqda, yeni leksika və elmi prosedurlar yaradılsın. Aydındır ki, fəlsəfə elmimiz və filosoflarımız daha yaxından işə başlamalı, biganə və passiv müşahidəçidən fəal iştirakçıya çevrilməli, taleyüklü problemlərin həllində öz töhfələrini verməlidirlər [1,s.25].

Belə bir nəticəyə gəlib çıxırıq ki, fəlsəfə həm cəmiyyət üçün, həm də insan üçün faydalıdır. O, bilik və şüurun, ideologiya və əxlaqın üfüqlərinin genişlənməsinə xidmət edir və bununla yanaşı o, insan azadlığını mənəvi proqramlar vasitəsi ilə yaşam praktikasına bağlayır, yəni ağılsızlığı məhdudlaşdıra bilir [3,s.9].

## Nəticə

Müasir gerçəkliklər həm yeni fəlsəfəni (dünyagörüşü), həm də yeni metodologiyanı tələb edir, bütövlükdə isə onlar tarixi prosesin fəlsəfəsini yenidən nəzərdən keçirməyə aparır, çünki mövcud inkişaf prosesi gələcək üçün "açıq", gələcək isə keçmiş və indinin çərçivələri ilə sərt determinasiyalaşmış olmuşdur. Dünyanın yeni mənzərəsində sosial nizam və produktiv xaos bir-birinə qarşı durmayıb biri-digərini qarşılıqlı tamamlayır, bu iki vəziyyət sosial sistemlərin dayanıqlılığına yardımçı olan sintezə can atır. İqtisadi, siyasi və sosiomədəni qloballaşma proseslərinin inteqrasiya sferasında fəlsəfənin köhnə binasının təməlinin transformasiyasını tələb edən yeni ontoloji, qnoseoloji və aksioloji problemlər yaranır. Buna görə də milli-mənəvi irsə əsaslanan fəlsəfəni inkişaf etdirmək, təbliğatını aparmaq, gənclərimizə öyrətmək zərurəti vardır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Abbasov Ə. Fəlsəfə və müasirlik. Müasir Azərbaycana hansı fəlsəfə lazımdır/Müasir fəlsəfə və Azərbaycan:tarix, nəzəriyyə, tədris. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Bakı, Avropa, 2010*
2. *Abbasova Q., İslamov İ. Fəlsəfənin tədrisi metodikası. Bakı, Turan evi, 2014*
3. *Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər.Tamamlanmış və yenidən işlənmiş ikinci nəşri. Bakı, Elm və təhsil, 2019*
4. *Xəlilov S. Fəlsəfə bizə lazımdırmı? 525-ci qəzet. 2009. 22 may. s.4.*
5. *www/murshudluqamar.az*
6. *Umberto Eko. Fəlsəfənin təsəllisi.http://www.bilge.az/article/76*
7. *Юлина Н.С. Программа «Философия для детей» и профилактика деструктивного поведения молодежи. – Вопросы философии, 1999, № 3, стр. 37-41.*

**Зейнаддин Шабанов**
***Институт Философии и Социологии НАНА,***
***доктор философии по философии, доцент***
***zeynaddin.shabanov@gmail.com***
***orcid.org 0000-0003-4102-6250***

## РАЗВИТИЕ ФИЛОСОФИИ НА ОСНОВЕ НАЦИОНАЛЬНО-ДУХОВНОГО НАСЛЕДИЯ

**РЕЗЮМЕ**

В статье проводится анализ проблем, с которыми сталкивается философия в современную эпоху, а также задач, стоящих перед философией в развитии общества. Обращается внимание на состояние преподавания философии в международном масштабе. Рассматриваются проблемы преподавания философии в Азербайджане, подчёркивается необходимость устранения существующих трудностей в этой области. Отмечается, что развитие общества связано с развитием и глубиной философского мышления. Подчёркивается, что философия должна развиваться, опираясь на национально-духовное наследие.

**Ключевые слова:** *философия, общество, преподавание, школа, студент, развитие, национально-духовное наследие.*

**Zeynaddin Shabanov**
***Institute of Philosophy and Sociology ANAS,***
***PhD in Philosophy, Associate Professor***
***zeynaddin.shabanov@gmail.com***
***orcid.org 0000-0003-4102-6250***

**SUMMARY**

The article analyzes the challenges that philosophy faces in the modern era and the roles it must play in the development of society. Attention is drawn to the state of philosophy teaching at the international level. The problems related to the teaching of philosophy in Azerbaijan are examined, and the necessity of overcoming existing difficulties in this field is emphasized. It is stated that the development of society is closely linked to the advancement and depth of philosophical thought. It is emphasized that philosophy must develop on the basis of national and spiritual heritage.

**Keywords:** *philosophy, society, education, school, student, development, national and spiritual heritage.*

*Rəyçi: Fəlsəfə üzrə fəlsəfə doktoru Mahrux Nəcəfli*
*Məqalə redaksiyaya daxil olub: 12.09.2025*
*Çapa qəbul olunub: 29.09.2025*

*The date of the admission of the article to the editorial office: 12.09.2025*
*Accepted for publication: 29.09.2025*